*Tam qətiyyətlə deyə bilərəm, – mən bunu dəfələrlə demişəm, – əgər o vaxt Heydər Əliyev Azərbaycanın rəhbəri olsaydı, torpaqlarımız heç vaxt işğal altına düşməzdi.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Xalqımızın nicat yolu

***15 İyun Azərbaycanda Milli Qurtuluş Günüdür. Bu tarixi yaradan müstəqilliyimizi əbədi edən, müasir Azərbaycan dövlətini möhkəmləndirən və inkişaf yoluna çıxaran, öz əməlləri ilə xalqımızın ümummilli liderinə çevrilən Heydər Əliyevdir.***

1993-cü ilin iyununda baş verənlər, xüsusən, Gəncə hadisələri mövcud hakimiyyətin iqtidarda olduğu bir il ərzində idarəçilikdə buraxdığı kobud səhvlərin nəticəsi idi. Müstəqilliyimizin yeni qazanılması, müharibə vəziyyətində olmağımız tamamilə fərqli bir siyasət yürüdülməsini, xüsusən, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi üçün təxirəsalınmaz addımların atılmasını zəruri etsə də, hakimiyyətdə olan AXC–Müsavat cütlüyü tamamilə uğursuz yol tutmuşdu. Dövlətçilik anlayışı arxa plana keçmişdi.

Proseslər sürətlə müstəqilliyimizin itirilməsinə doğru gedirdi. Separatçılıq meyillərinin dərinləşməsi isə ölkəni parçalanmaq təhlükəsi qarşısında qoymuşdu. Ölkədəki hərc-mərcliyin, anarxiyanın, siyasi çəkişmələrin, qardaş qırğınının qarşısı alınmalı idi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Belə bir vəziyyətdə dahi siyasətçi Heydər Əliyevin təkidlə Bakıya dəvət olunması həmin dövrdə müdrik ümumxalq qərarı oldu. Ulu öndər Heydər Əliyev həmin dövrü belə xarakterizə edirdi: “Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi.”

Həmin ağır və mürəkkəb dövrdə ümummilli liderin Bakıya dəvət olunması, iyun ayının 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi vəziyyəti kökündən dəyişdi. Ulu öndərin qayıdışı faciələrin qarşısını aldı. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

Beləliklə, Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindən biri odur ki, dahi şəxsiyyət mürəkkəb bir şəraitdə, o cümlədən respublikamız ətrafında dərin geopolitik ziddiyyətlərin mövcud olduğu bir dövrdə Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Azərbaycanda dövlətçilik ənənələri möhkəmləndi.

Ötən 29 ildə Azərbaycan yalnız inkişaf edib, müstəqilliyini və dövlətçiliyini daha da möhkəmləndirib. Bu illərdə ölkəmiz dünya birliyində özünə layiqli yer tutub, regional və qlobal miqyasda söz sahibinə, Cənubi Qafqazın liderinə çevrilib. Təbii ki, 1993-cü ilin iyununda, respublikamız parçalanmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas olmasaydı, bu gün əldə etdiyimiz uğurlar haqqında danışmaq mümkün olmazdı.

2020-ci ilin payızındakı 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə ilə xalqımız 1993-cü ilin qurtuluşundan sonra növbəti şərəfli tarixini yazdı. Ulu öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. O dahi şəxsiyyət keçmiş məcburi köçkünlər qarşısında çıxışlarının birində demişdi: “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu – biz onlarsız yaşaya bilmərik”.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, ulu öndərin dedikləri həqiqətə çevrildi. İşğaldan azad olunmuş ərazilərimizdə bu gün Azərbaycan Bayrağı dalğalanır. Hazırda keçmiş məcburi köçkünlərin öz dədə-baba yurduna qayıtması üçün Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri geniş miqyas alıb. 1993-cü ildə dünya xəritəsindən silinməkdən xilas olan Azərbaycan bu gün beynəlxalq münasibətlər sisteminin layiqli üzvü kimi öz mövqeyini daha da möhkəmləndirməkdədir.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***